**Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2020-ci il üzrə hesabatı**

## 1. Dövlət Sosial Müdafiə Fondu

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun (bundan sonra - DSMF) gəlir və xərclərinin icrası, sığorta-pensiya sistemində beynəlxalq standartların və innovativ yanaşmaların tətbiqi, əmək pensiyaçılarına və əhalinin həssas təbəqələrinə pensiya və müavinətlərin vaxtında verilməsi və onların sosial müdafiəsinin gücləndirilməsi tədbirləri hesabat ilində də davam etdirilmişdir.

Hesabat ilində DSMF-nin gəlirləri 4747,8 mln. manat təşkil etmişdir ki, bu da 2019- cu illə müqayisədə 621,3 mln. manat çoxdur.




Məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 2019-cu ilə nisbətən 21,6% və ya 631,3 mln. manat artaraq 3552,9 mln. manat təşkil etmişdir. Bu vəsaitin 61,4%-i və ya 2182,7 mln. manatı qeyri-büdcə sektorunun payına düşməklə, 2019-cu ilin müvafiq göstəricisinə nisbətən 15,9% və ya 299,7 mln. manat çox olmuşdur.




Hesabat dövründə büdcədən maliyyələşdirilən təşkilatlardan daxil olmuş məcburi dövlət sosial sığorta haqlarının məbləği 1370,2 mln. manat və ya proqnozlaşdırılan məbləğin 97,4%-i qədər olmuşdur.

Sair gəlirlər (maliyyə sanksiyaları, faizlər, sanatoriya-kurort yollayışlarının qis-mən dəyərinin ödənilməsi və s.) üzrə daxilolmalar 16,9 mln. manat təşkil etmişdir.

DSMF-nin büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitin Fondun gəlirlərində nisbi payı 2018-ci illə müqayisədə 2020-ci ildə 10,8% azalaraq 24,8% təşkil etmişdir ki, bu da DSMF-

nin dövlət büdcəsindən asılılığının azalması və maliyyə dayanıqlığının möhkəmlənməsinin əsas göstəricilərindən biri kimi qəbul edilə bilər.

Əsassız pensiya və əlillik işlərinin ləğvi nəticəsində 2020-ci ildə dövlət büdcəsindən transfertin məbləği 250,0 mln. manat azaldılaraq 1177,9 mln. manat təşkil etmişdir.

2020-ci ildə DSMF-nin ümumi xərcləri 4710,4 mln. manat olmuşdur. Həmin dövrdə əhaliyə ödənişlərin maliyyələşdirilməsi üçün Fond tərəfindən 4587,1 mln. manat vəsait xərclənilmişdir.




Əhaliyə ödənişlərin tərkibində pensiya xərcləri 4477,1 mln. manat (97,6%) təşkil etmişdir. Əhaliyə məcburi dövlət sosial sığorta haqları hesabına 110,0 mln. manat məbləğində müavinət ödənilmişdir ki, bunun da 29,9%-i əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə, 32,5%-i hamiləliyə və doğuma görə, 20,5%-i dəfn üçün, 17,1%-i isə digər müavinətlərin payına düşmüşdür.

Hesabat dövründə DSMF-nin digər xərcləri 123,3 mln. manat təşkil etmişdir.

2020-ci il pensiyaçıların həm maddi rifahının yaxşılaşdırılması, həm də onlara rahat, əlçatan və şəffaf şəkildə pensiyaların təyinatı istiqamətində islahatların həyata keçirilməsi ilə əlamətdar olmuşdur.

Hesabat ilində ölkə üzrə əmək pensiyaçılarının 716,7 min nəfəri və ya 58,2%-i yaşa görə, 374,8 min nəfəri və ya 30,4%-i əlilliyə görə, 140,7 min nəfəri və ya 11,4%-i isə ailə başçısını itirməyə görə pensiya almışdır.

**Əmək pensiyaçılarının sayı və pensiyanın orta aylıq məbləği barədə məlumat**

| Tarix | Yaşa görə | Orta aylıq | Əlilliyə görə | Orta aylıq | ABİ | Orta aylıq | Ümumi | Orta aylıq |
|---|---|---|---|---|---|---|---|---|
| **31.12.2005** | 779 472 | 29,49 | 266 888 | 32,25 | 135 315 | 26,51 | 1 181 675 | 29,78 |
| **31.12.2006** | 783 371 | 40,98 | 275 925 | 45,35 | 128 730 | 32,56 | 1 188 026 | 41,09 |
| **31.12.2007** | 798 052 | 60,11 | 285 629 | 62,73 | 126 430 | 43,48 | 1 210 111 | 58,99 |
| **31.12.2008** | 835 844 | 99,39 | 301 661 | 94,80 | 137 633 | 76,37 | 1 275 138 | 95,82 |
| **31.12.2009** | 858 659 | 104,36 | 311 849 | 98,53 | 137 924 | 80,11 | 1 308 432 | 100,41 |
| **31.12.2010** | 831 122 | 117,58 | 324 745 | 110,74 | 136 288 | 89,20 | 1 292 155 | 112,86 |
| **31.12.2011** | 812 771 | 160,10 | 331 586 | 126,10 | 133 239 | 101,00 | 1 277 596 | 145,11 |
| **31.12.2012** | 800 547 | 168,54 | 338 213 | 129,84 | 133 376 | 109,15 | 1 272 136 | 152,03 |
| **31.12.2013** | 791 263 | 187,82 | 349 095 | 148,40 | 136 695 | 126,16 | 1 277 053 | 170,45 |
| **31.12.2014** | 785 068 | 192,38 | 365 750 | 149,43 | 140 064 | 130,00 | 1 290 882 | 173,44 |
| **31.12.2015** | 781 238 | 197,62 | 374 466 | 150,30 | 144 242 | 140,4 | 1 299 946 | 177,64 |
| **31.12.2016** | 781 957 | 213,81 | 383 590 | 163,23 | 149 682 | 153,43 | 1 315 229 | 192,19 |
| **31.12.2017** | 780 756 | 230,70 | 390 851 | 171,40 | 151 272 | 163,10 | 1 322 879 | 205,50 |
| **31.12.2018** | 756 136 | 249,25 | 390 113 | 184,99 | 149 243 | 175,40 | 1 295 492 | 221,39 |
| **31.12.2019** | 742 034 | 291,50 | 383 993 | 229,74 | 144 532 | 201,21 | 1 270 559 | 263,59 |
| **31.12.2020** | 716 661 | 329,57 | 374 813 | 261,88 | 140 738 | 241,71 | 1 232 212 | 298,95 |

**Qeyd:** Əmək pensiyaçılarının sayı nəfərlə, pensiyanın orta aylıq məbləği manatla verilmişdir.

2020-ci ilin 1 yanvar tarixinə bütün növ əmək pensiyalarının sığorta hissəsi 2019-cu ildə ölkə üzrə orta aylıq nominal əməkhaqqının 16,6% illik artım tempinə və fərdi uçot sistemində fərdi hesabların sığorta hissəsində qeydə alınmış pensiya kapitalı məbləğləri 2019-cu ildə ölkə üzrə istehlak qiymətləri indeksinin 2,6 faizlik illik səviyyəsinə uyğun indeksləşdirilmişdir. Əmək pensiyalarının indeksləşdirilməsi məqsədilə illik 513,6 mln. manat vəsait xərclənmiş və bu artım 1,2 mln. pensiyaçını əhatə etmişdir.

Görülən tədbirlər nəticəsində əmək pensiyalarının orta aylıq məbləği 2020-ci ilin 1 yanvar tarixinə olan 263,59 manatdan 2021-ci ilin 1 yanvar tarixinə ilkin hesablamalara görə 298,95 manata, o cümlədən müvafiq olaraq həmin tarixə yaşa görə əmək pensiyasının orta aylıq məbləği 291,5 manatdan 329,57 manata, əlilliyə görə əmək pensiyasının orta aylıq məbləği 229,74 manatdan 261,88 manata və ailə başçısını itirməyə görə əmək pensiyasının orta aylıq məbləği isə 210,21 manatdan 241,71 manata yüksəlmişdir. Pensiyaların orta aylıq məbləği ötən illə müqayisədə 13,4%, o cümlədən yaşa görə pensiyanın orta aylıq məbləği isə 13,1% artmışdır.

2020-ci il ərzində 11,3 min nəfərə (10,5 min nəfərə yaşa görə, 789 nəfərə isə əlilliyə görə) elektron qaydada əmək pensiyası təyin edilmişdir.

Hesabat dövrü ərzində pensiya sahəsində aparılmış islahatlar çərçivəsində müvafiq qanunvericiliyə dəyişikliklər edilməklə vətəndaşlara ailə başçısını itirməyə görə hesablanmış əmək pensiyasının sığorta hissəsinin onlardan hər birinə düşən məbləği “Sosial müavinətlər haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş ailə başçısını itirməyə görə sosial müavinətin məbləğindən az olduğu təqdirdə, əmək qabiliyyəti olmayan ailə üzvlərinin hər biri ailə başçısını itirməyə görə pensiya əvəzinə ailə başçısını itirməyə görə sosial müavinət almaq hüququna malik olması imkanı yaradılmışdır.

2020-ci il ərzində sığortaolunan kimi qeydiyyata alınmış şəxslərin sayı 447,5 min nəfər və ya 11,4% artaraq, hesabat dövrünün sonuna 4,4 mln. nəfər təşkil etmişdir.

Sosial sığorta dərəcələrinin optimallaşdırılması, bir sıra kateqoriyadan olan sahibkarlıq subyektlərinin məcburi dövlət sosial sığorta haqlarının ödənilməsinə marağının artırılması, habelə ölkədə məcburi dövlət sosial sığorta ödəyicilərinin sayının dürüstləşdirilməsi, ən əsası isə qeyri-formal məşğulluğun azaldılması məqsədilə qanunvericiliyə edilmiş dəyişikliyə uyğun olaraq 2020-ci ilin 1 aprel tarixindən 2021- ci ilin 1 yanvar tarixinədək sahibkarlıq subyektləri tərəfindən ödənilən məcburi dövlət sosial sığorta haqları pandemiya ilə əlaqədar azaldılmış, bundan əlavə 2026-cı ilə qədər ölkənin regionları üzrə aşağı faiz dərəcələri tətbiq edilmişdir.

## 2. İşsizlikdən Sığorta Fondu

2020-ci ildə əhaliyə göstərilən məşğulluq xidmətlərinin keyfiyyətinin artırılması, şəffaflığın, operativliyin və əlçatanlığın, habelə inzibati idarəetmə modelindən xidmət modelinə keçidin təmin olunması fövqündə işsiz və işaxtaran şəxslərin sosial müdafiəsinin gücləndirilməsi istiqaməti üzrə çoxsaylı tədbirlər davam etdirilmişdir.

Hesabat dövründə məşğulluq xidmətlərinin əlçatanlığını və effektivliyini təmin etmək üçün xidmətlərin elektronlaşdırılması və rəqəmsallaşdırılması istiqamətində sistem əhəmiyyətli layihələrə başlanılmış və ilkin nəticələr əldə edilmişdir.

İşsizlikdən Sığorta Fondunun (İSF) 2020-ci il üçün gəlirləri 151,2 mln. manat təsdiq edilmişdir ki, bu da 2019-cu illə müqayisədə 52,8 mln. manat və ya 54,0% çoxdur.

2020-ci ildə İSF-nin gəlirlərinin icrası 134,3 mln. manat səviyyəsində olmuşdur ki, bu da əvvəlki ilin müvafiq göstəricisindən 20,7% çoxdur. Bununla yanaşı, qənaət və əvvəlki ilin qalıqları nəzərə alınmaqla fondun ümumi gəlirləri 173,7 mln. manat təşkil etmişdir ki, bu da 2019-cu illə müqayisədə 38,0% çox olmuşdur.

***İşsizlikdən Sığorta Fondunun gəlirləri (2018-2020)***




İSF-nin 2020-ci il üçün xərcləri 2019-cu illə müqayisədə 54,0% və ya 52,8 mln. manat çox olmaqla 151,2 mln. manat təsdiq edilmişdir.

2020-ci ildə İSF-nin xərclərin icrası 126,1 mln. manat səviyyəsində olmuşdur ki, bu da əvvəlki ilin müvafiq göstəricisindən 1,9 dəfə çoxdur.




2020-ci ildə İSF-nin vəsaitlərindən işsizliyə görə sığorta ödənişinə 1943,5 min manat, peşə hazırlığı və əlavə təhsilin təşkilinə 2525,8 min manat, haqqı ödənilən ictimai işlərin təşkilinə 1990,7 min manat, özünüməşğulluq fəaliyyətinin təşkilinə 76665,6 min manat, peşə standart və kvalifikasiyaların hazırlanmasına 974,7 min manat, məşğulluq orqanlarının saxlanılmasına 20484,7 min manat, Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin

(DOST) saxlanılmasına 20200,0 min manat, Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın təşkilinə 1309,9 min manat yönəldilmişdir.

2021-ci ildən etibarən İSF-nin büdcəsinin daha səmərəli xərclənilməsi məqsədilə ekonometrik proqnozlaşdırma modeli hazırlanmış və büdcənin, eləcə də satınalmaların aylıq əsasda icrasına nəzarət mexanizmi qurulmuşdur.

Eyni zamanda, Dövlət Məşğulluq Agentliyi tərəfindən 2020-ci il ərzində 150 mindən çox şəxs aktiv məşğulluq tədbirlərinə cəlb edilmişdir. Belə ki:

- 100 min işsiz və işaxtaran şəxs münasib işlərlə təmin edilmişdir (onlardan 37 min şəxs daimi, 35 min şəxs isə müvəqqəti ictimai işlərlə təmin olunmuşdur);

– 12 min nəfər özünüməşğulluq proqramına cəlb edilmiş, onlar üçün iqtisadiyyatın müxtəlif sahələri üzrə kiçik təsərrüfatlar, biznes sahələri yaradılmışdır. Bu göstərici üzrə özünüməşğulluq proqramı ilə əhatə olunanların sayı son üç ildə 11 dəfə artmışdır;

– peşə hazırlığı kurslarına 1014 nəfər cəlb edilmişdir. Onlara əmək bazarının tələblərinə uyğun olaraq müxtəlif sahələr üzrə peşələr tədris edilmişdir. Pandemiya səbəbilə tədris online qaydada davam etdirilmişdir. İşsiz şəxslərə peşə hazırlığı keçdiyi dövrdə minimum aylıq əməkhaqqı məbləğində təqaüd ödənilmişdir;

– 37660 şəxs peşəyönümü tədbirlərə cəlb olunmuş, onlara peşəyönümü məsləhət xidmətləri göstərilmişdir;

– 1292 nəfərə işsizlikdən sığorta ödənişi təyin edilmişdir.

2020-ci ildə özünüməşğulluq proqramına cəlb olunmuş 12 min nəfər şəxsdən 3276 nəfəri qadın, 1777 nəfəri 29 yaşadək gənc, 1837 nəfər əlil, 1486 nəfər məcburi köçkün, 867 nəfər şəhid ailəsinin üzvü, 121 nəfər cəzaçəkmə yerindən azad olunmuş şəxs, 64 nəfər ünvanlı dövlət sosial yardımı alan şəxslər olmuşdur.




***Özünüməşğulluq proqramına cəlb olunmuş şəxslərin həssas qruplar üzrə bölgüsü (2016-2020)***




2020-ci ildə Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi ilə özünüməşğulluq proqramının icrası sahəsində əməkdaşlıq davam etdirilmiş, bu çərçivədə

250 ailəyə intensiv meyvə bağlarının, tərəvəz və bostançılıq təsərrüfatlarının yaradılmasına dəstək verilmiş və bu istiqamət üzrə 2233,9 min manat vəsait xərclənmişdir.

BMT-nin İnkişaf Proqramının dəstəyi ilə həyata keçirilən “Əhalinin sosial cəhətdən həssas qrupları üçün inklüziv və layiqli iş yerlərinin yaradılması” texniki yardım layihəsinin tərkib hissəsi olaraq 2020-ci ildə 3 mln. manat vəsait köçürülmüşdür. 2021- ci ildə də bu əməkdaşlıq çərçivəsində proqramın icrası davam etdiriləcəkdir.

Bundan başqa, ən yaxşı təcrübələr əsasında özünüməşğulluq proqramının genişləndirilməsi və Dünya Bankının vəsaitləri hesabına məşğulluq xidməti orqanlarında işsiz kimi qeydiyyatda olan sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər, o cümlədən, şəhid ailələrinin, məcburi köçkünlərin, Ünvanlı Dövlət Sosial Yardım alanların, qadınların, gənclərin özünüməşğulluğa cəlb edilərək onların formal əmək bazarına və layiqli məşğulluğa çıxış imkanlarının yaradılması məqsədilə Dünya Bankının “Məşğulluğa Dəstək Layihəsi”nin icrasına başlanılmışdır. Bununla əlaqədar, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 4 iyun və 16 iyul tarixli 236s və 355s nömrəli Sərəncamlarına əsasən kredit sazişi imzalanmış və təsdiq edilmişdir. Layihə üzrə icraçı qurum (benefisiar) Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi olaraq müəyyən edilmiş və Layihə İdarəetmə Qrupu yaradılmışdır. 2020-ci ildə layihə üzrə 320,0 min ABŞ dolları məbləğində vəsait istifadə edilmiş, həmçinin layihə üzrə vətəndaşlara veriləcək aktivlərin satınalınması ilə bağlı prosedurlara başlanılmışdır. 2021-ci ildə 6 min şəxsin layihə çərçivəsində özünüməşğulluq proqramına cəlb olunması nəzərdə tutulur.

Sosial iş yerlərində işçilərin əmək haqlarının maliyyələşdirilməsi proqramı təkmilləşdirilmiş və proqramın icrası məqsədilə ölkə üzrə prioritet sahələrin və peşələrin siyahısı qiymətləndirmə əsasında müəyyən edilmiş, sosial iş yerlərində işə düzəlmək üçün 219 işsiz və işaxtaran şəxsə göndəriş verilmiş, 42 nəfərlə əmək müqaviləsi bağlanaraq (3 nəfər əlil, 31 nəfər gənc, 24 nəfər qadın olmaqla) işə qəbul edilmişdir.

## 3. Əmək münasibətləri

***Məşğulluq və işsizlik.*** 2021-ci il yanvarın 1-i vəziyyətinə muzdla çalışan işçilərin sayı əvvəlki illə müqayisədə ilkin məlumatlara əsasən 2,7% artaraq 1691,8 min nəfər olmuş, onlardan 53,8%-i iqtisadiyyatın dövlət sektorunda, 46,2%-i isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir.

Muzdla işləyənlərin 27,9%-i təhsil, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 24,3%-i sənaye, kənd təsərrüfatı və tikinti, 18,5%-i ticarət, nəqliyyat vasitələrinin təmiri, 6,6%-i dövlət idarəetməsi və müdafiə, sosial təminat, 4,5%-i nəqliyyat və anbar təsərrüfatı, 18,2%-i isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

Hesabat dövründə məşğulluq tədbirləri çərçivəsində 96,3 min nəfər münasib işlə təmin edilmişdir.

2020-ci il ərzində Dövlət Məşğulluq Agentliyi (DMA) tərəfindən 1014 nəfər işsiz şəxs dövlət regional peşə təhsili mərkəzlərində (Bakı, Göyçay, Naxçıvan) və peşə təhsili müəssisələrində peşə hazırlığı kurslarına cəlb olunaraq, onlara müvafiq istiqamətlər üzrə təlim keçirilmişdir.

İşaxtaran və işsiz şəxslər üçün çevik və dəyişən əmək bazarının tələblərinə cavab verən və müasir standartlar əsasında fəaliyyət göstərən Regional Peşə Hazırlığı Mərkəz-ləri şəbəkəsinin genişləndirilməsi məqsədilə 2020-ci ildə Dövlət Məşğulluq Agentliyinin tabeliyində Gəncə Regional Peşə Hazırlığı Mərkəzi yaradılmışdır.

Gənc nəslin məşğulluğunun təmin olunmasında peşəyönümünün mühüm əhəmiyyət kəsb etdiyi nəzərə alınaraq, hesabat dövründə orta ümumtəhsil məktəblərinin şagirdlərinə, eləcə də DMA-nın ərazi məşğulluq mərkəzi filiallarına müraciət etmiş 37,7 min işaxtaran və işsiz şəxsə, peşəyönümü məsləhəti verilmişdir ki, onlardan da 9,4 min nəfərini işaxtaranlar, 28,2 min nəfərini isə məktəblilər təşkil etmişdir. Peşəyönümü məsləhəti verilən işaxtaranlardan 5,8 min nəfərini kişilər, 3,6 min nəfərini qadınlar, məktəblilərdən isə 14,9 min nəfərini oğlanlar, 13,3 min nəfərini isə qızlar təşkil etmişdir.

2020-ci ildə 9,7 min nəfər kənd təsərrüfatı, 2,9 min nəfər istehsal və xidmət olmaqla, ümumilikdə 12,6 min nəfər özünüməşğulluq proqramına müraciət etmişdir.

Hesabat ilində özünüməşğulluq proqramına müraciət etmiş 12,6 min nəfər şəxsdən 3,2 min nəfəri qadın, 1,7 min nəfəri 29 yaşadək gənc, 1,8 min nəfəri əlilliyi olan şəxs, 1,5 min nəfəri məcburi köçkün, 856 nəfəri şəhid ailəsinin üzvü, 120 nəfəri cəzaçəkmə müəssisələrindən azad olunmuş şəxs, 57 nəfəri Ünvanlı Dövlət Sosial Yardımı alan şəxslər olmuşdur.

2020-ci ildə 856 nəfər şəhid ailəsi üzvü, 418 nəfər müharibədə yaralanmış şəxs və ya onun ailə üzvü, 232 nəfər müharibə iştirakçısı və ya onun ailə üzvü olmaqla, ümumilikdə 1,5 mindən çox şəxs növbədənkənar özünüməşğulluq proqramına cəlb edilmişdir. Həmçinin Bərdə, Tərtər rayonları və Gəncə şəhərində erməni terroru nəticəsində evləri dağıdılmış 27 nəfər şəxsin özünüməşğulluğa cəlb edilməsi təmin edilərək ailə təsərrüfatının yaradılmasına köməklik göstərilmişdir. Postmüharibə dövründə növbədənkənar özünüməşğulluğa cəlb edilmiş şəxslərdən 807 nəfər əmlakla təmin edilmişdir.

BMT-nin İnkişaf Proqramı (UNDP) və BMT-nin Əhali Fondu tərəfindən "Əlilliyi olan qadınların və Dağlıq Qarabağ müharibəsi veteranlarının hüquqlarının və rifahının təmin edilməsi" layihəsi çərçivəsində Salyan və Masallı rayonlarında 60 nəfər avadanlıq və materiallar ilə təmin olunmuş, peşə hazırlığı, işaxtarma bacarığı kursları təşkil edilmiş, Virtual laboratoriya yaradılmış və İnklüziv İncəsənət Məktəbi fəaliyyətə başlamışdır.

2020-ci ildə respublikanın 16 şəhər və rayonlarında 522 müəssisə, idarə və təşkilatın iştirakı ilə əmək yarmarkaları təşkil olunmuşdur. Əmək yarmarkalarında təklif olunan 4,8 min boş (vakant) iş yerləri üzrə 1,1 min nəfər işsiz və işaxtaran şəxs işlə təmin edilmişdir. Onlardan 392 nəfəri qadın, 18 nəfəri qaçqın və məcburi köçkün, 304 nəfəri gənclər, 24 nəfəri əlilliyi olan şəxslərdir.

"Azərbaycan Respublikasında 2020-ci il üçün yaşayış minimumu haqqında" 2019- cu il 29 noyabr tarixli 1699-VQ nömrəli Azərbaycan Respublikasının Qanununa əsasən 2020-ci il yanvarın 1-dən əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumunun məbləği ölkə üzrə 190 manat, əmək qabiliyyətli əhali üçün 201 manat, pensiyaçılar üçün 157 manat, uşaqlar üçün 170 manat məbləğində müəyyən edilmişdir.

**2020-ci il üçün yaşayış minimumu, *manat***




Dünya Bankının ölkələrin adambaşına düşən gəlir səviyyəsinə görə təsnifatında ölkəmiz orta yüksək gəlirli ölkə kimi təsnifləşdirilmişdir. Azərbaycanda Dünya Bankının yanaşması ilə 0% ifrat yoxsulluq səviyyəsi, milli yanaşma ilə isə 2020-ci ildə 6,2% mütləq yoxsulluq səviyyəsi qeydə alınmışdır. Mütləq yoxsulluq anlayışı ilə yanaşı, nisbi yoxsulluq anlayışı araşdırılmış, nisbi yoxsulluğun ölkəmizdə tətbiqinə dair ekvivalentlik şkalası üzrə ilkin hesablamalar aparılmışdır.

2020-ci ilin ilkin məlumatlarına əsasən ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 2019-cu ilə nisbətən 11,4% artaraq 707,3 manat təşkil etmişdir. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı ölkə üzrə orta göstəricidən yüksək olmuşdur.

**2015-2020-ci illərdə minimum əməkhaqqı və bir nəfərə düşən orta aylıq nominal əməkhaqqı**




2020-ci il ərzində müxtəlif orqanlardan daxil olmuş materialların və vətəndaş müraciətlərinin araşdırılması zamanı 955 halda işəgötürənlər tərəfindən əmək qanunvericiliyinin tələblərinin pozulduğu aşkar edilmişdir. Törədilmiş inzibati xətaya görə Dövlət Əmək Müfəttişliyi Xidməti (DƏMX) tərəfindən vəzifəli və hüquqi şəxslər barəsində inzibati qərarlar qəbul edilərək 1716,1 min manat məbləğində inzibati qaydada cərimə tətbiq olunmuşdur. Tətbiq olunmuş cərimələrdən 664,9 min manatının dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir.

DƏMX tərəfindən görülmüş tədbirlərin nəticəsi olaraq vətəndaşlara ödənilməsi gecikdirilmiş 223,7 min manat vəsaitin (onlardan 94,0%-i əməkhaqqı, 3,7%-i sosial müavinət və kompensasiya, 2,1%-i zərərə görə ödənc) ödənilməsi təmin edilmişdir.

Hesabat dövründə əmək müqavilələrinə qanunvericiliyin tələbləri pozulmaqla xitam verilmiş 11 nəfər öz əvvəlki işlərinə bərpa edilmiş, bu işçilər barəsində yol verilmiş qanun pozuntularının aradan qaldırılması təmin edilmişdir.

İstehsalatla əlaqəli sayılmış 228 bədbəxt hadisənin təhqiqatı aparılmış, 11-i qrup halında olan bu hadisələr nəticəsində 48 nəfər vəfat etmiş, 202 nəfər isə müxtəlif dərəcəli bədən xəsarəti almışdır. İstehsalatda baş vermiş bədbəxt hadisələrin təhqiqatı nəticəsində 250 nəfər zərərçəkmiş şəxsə "İZ" (istehsalat zədəsi) formalı aktın verilməsi təmin olunmuşdur.

İqtisadi fəaliyyət sahələri üzrə istehsalatla bağlı bədbəxt hadisələrin daha çox emal sənayesi sahəsi (21,0%), tikinti sahəsi (17,5%), mədənçıxarma sənayesi sahəsi (12,7%), nəqliyyat və anbar təsərrüfatı sahəsi (7,5%), energetika sahəsi (6,7%) və digər sahələrdə (34,6%) baş verməsi müəyyən edilmişdir.

DƏMX tərəfindən uşaq əməyinin qarşısının alınması ilə əlaqədar hüquq mühafizə və digər orqanlardan daxil olmuş məlumatlar üzrə 2020-ci il ərzində 3 halda 15 yaşına çatmamış şəxsin işə cəlb edilməsi faktı aşkar edilmiş və bu faktlarla əlaqədar müvafiq tədbirlər görülmüşdür.

## 4. Sosial müdafiə və sosial təminat

***Ünvanlı Dövlət Sosial Yardımı.*** 2019-cu illə müqayisədə 2020-ci ildə Ünvanlı Dövlət Sosial Yardımı (ÜDSY) alan ailələrin sayı 5,1% çox olmaqla 76,8 min ailə və ya 322,1 min ailə üzvü olmuşdur.

ÜDSY-nin maliyyələşdirilməsinə 216,0 mln. manat vəsait sərf edilmiş, bir ailəyə düşən sosial yardımın orta aylıq məbləği ümumilikdə sosial yardım alan ailələr üzrə 240 manat təşkil etmişdir. Bu göstərici 2019-cu illə müqayisədə 15,4% çoxdur.

Pandemiya ilə əlaqədar olaraq, 2020-ci il üzrə 38,9 min ailə üzvü olan 9,4 min ailənin bitmiş ÜDSY təyinatının müddəti 1 iyul tarixinədək uzadılmışdır.

***Sosial müavinətlər və təqaüdlər.*** Hesabat ili ərzində DSMF tərəfindən 398 min nəfərə və ya əhalinin 4,1%-nə aylıq, 90 min nəfərə və ya əhalinin 0,9%-nə birdəfəlik xarakterli olmaqla, ümumilikdə 488 min nəfərə və ya əhalinin 5,1%-nə sosial müavinət, 276 min nəfərə və ya əhalinin 2,9%-nə isə Azərbaycan Respublikası Prezidentinin təqaüdü ödənilmişdir. Ümumilikdə, 83,7 min elektron qaydada sosial ödəniş təyin olunmuşdur.

2020-ci ildə sosial müdafiə sahəsində bir sıra qanunvericilik aktlarına edilən əlavə və dəyişikliklər, habelə qəbul edilən yeni normativ hüquqi aktlar dayanıqlı sosial müdafiəyə nail olmaq məqsədilə 1 yeni növ aylıq sosial müavinət (övladlığa götürülən uşağa, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa görə müavinət) və 3 yeni növ Prezidentin aylıq təqaüdləri (“Vətən Müharibəsi Qəhrəmanı adı” verilmiş şəxslərə, I dərəcə gözdən əlilliyi olan şəxslərə və əsas iş yeri üzrə elmi müəssisə və təşkilatlarda və ya təhsil müəssisələrində azı 25 il çalışmış elmi dərəcəsi olan işləməyən əmək pensiyası hüququ olan şəxslərə) təsis edilmiş, mövcud təqaüdlərdən bir neçəsinin məbləği əhəmiyyətli dərəcədə artırılmışdır. Belə ki, Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslərə təqaüdün məbləği 20% artırılaraq 1800 manata, şəhid ailələri və 20 Yanvar şəhidlərinin ailələrinə, habelə Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələrinə təqaüd 66,7% artırılaraq 500 manata, İkinci Dünya müharibəsi iştirakçılarına təqaüd 100% artırılaraq 300 manata çatdırılmış, həmçinin müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə təqaüdün məbləği orta hesabla 50% (I dərəcə əlilliyi olan şəxslərə təqaüdün məbləği 250 manatdan 400 manatadək, II dərəcə əlilliyi olan şəxslərə təqaüdün məbləği 230 manatdan 350 manatadək, III dərəcə əlilliyi olan şəxslərə təqaüdün məbləği 210 manatdan 300 manatadək) artırılmışdır.

1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə 2020-ci ildə 201 hərbçinin 296 varisinə ödəmələr həyata keçirilmişdir.

***Sosial xidmət.*** Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslər və şəhid ailələrindən 2020-ci ildə 1450 nəfərinə mənzil və ya fərdi ev təqdim edilmişdir.

Hesabat dövründə növbədə olan imtiyazlı şəxslərdən 400 nəfəri pulsuz avtomobillə təmin olunmuşdur.

2020-ci il ərzində əlilliyi olan şəxslərə 2,3 min ədəd sanatoriya-kurort yollayışı verilmişdir. Sosial müdafiəyə daha çox ehtiyacı olan 4,9 mindən çox əlilliyi olan şəxsə reabilitasiya və sosial-məişət problemlərinin həll edilməsi və 50 nəfər əlilliyi olan şəxsə respublika daxilində müalicə olunmasına köməklik göstərilməsi məqsədilə birdəfəlik maddi yardım göstərilmişdir. Həmçinin, 17 nəfər əlilliyi olan şəxsə respublikadan kənarda müalicəsinə köməklik məqsədilə yol xərci ödənilmişdir. 3 Dekabr “Beynəlxalq əlilliyi olan şəxslər günü” ilə əlaqədar 7,5 min nəfər sosial müdafiəyə xüsusi ehtiyacı olan əlilliyi olan şəxsə maddi yardım olunmuşdur.

Hesabat dövründə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi (SXA) tərəfindən 15 min nəfər sosial xidmətə ehtiyacı olan tənha ahıllara, ahıl ər-arvadlara və əlilliyi olan şəxslərə evdə sosial xidmət göstərilmişdir. Onlardan 6,2 min nəfəri ahıl, 1,4 min nəfəri isə tənha yaşayan əlilliyi olan şəxslər olmuşdur.

2020-ci ildə SXA-nın tabeliyində olan sosial xidmət müəssisələrində ümumilikdə 1,5 mindən çox şəxsə sosial xidmət göstərilmişdir. 152 əlilliyi olan gənc müvafiq sosial xidmət müəssisəsində peşə-əmək reabilitasiyasına, 73 nəfər əlilliyi olan şəxs Paralimpiya İdman Kompleksində idmana cəlb edilmişdir. İnsan Alveri Qurbanlarına Yardım Mərkəzi tərəfindən 32 şəxsə hüquqi, psixoloji və digər xidmətlər göstərilmişdir.

***Övladlığagötürmə.*** 2020-ci ildə 27 uşaq (15 oğlan, 12 qız) övladlığa verilmişdir ki, onlardan 23-ü Azərbaycan vətəndaşları, 4-ü isə əcnəbi yaxın qohum və ya ögey ata-ana tərəfindən övladlığa götürülənlərdir.

Uçota alınmış valideyn himayəsindən məhrum olmuş uşaqların ümumi sayı 1,5 min nəfər (918 oğlan, 576 qız) təşkil etmişdir ki, onlardan 1183-ü sağlam, 311-i isə sağlamlıq imkanları məhdud uşaqlar olmuşdur.

2020-ci ildə "Övladlığa götürməyə, qəyyumluğa və himayəyə imkan verməyən xəstəliklərin Siyahısının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 15 avqust tarixli 141 nömrəli Qərarına edilən dəyişikliyə əsasən əlilliyi olan şəxslər də övladlığa uşaq götürə bilmək imkanı qazanmışdır.

Bundan əlavə, müvafiq qanunvericiliyə edilmiş dəyişikliklərə əsasən nəzərdə tutulmuş valideyn himayəsindən məhrum olmuş 3-18 yaş arası övladlığa götürülən hər uşaq üçün aylıq 160 manat, övladlığa götürülən sağlamlıq imkanları məhdud hər uşaq üçün aylıq 480 manat məbləğində müavinətin verilməsi, həmçinin övladlığa götürülmüş uşaqların ödənişli əsaslarla təhsil aldıqları müddətdə onların təhsil haqlarının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi, sağlamlıq imkanları məhdud uşaqları övladlığa götürən valideynlərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəlirinin 200 manat məbləğində azaldılması nəzərdə tutulmuşdur.

***Əlillik, tibbi-sosial ekspertiza və reabilitasiya.*** 2020-ci ildə dövlət tibb müəssisələri tərəfindən rəsmiləşdirilmiş göndərişlər əsasında 13,2 min nəfər üzrə ilkin əlillik təyinatı aparılmışdır ki, bu da əvvəlki illə müqayisədə 53,0% azdır. Onlardan, I dərəcə ilkin əlillik müəyyən olunmuş şəxslərin sayı 1,7 min nəfər, II dərəcə ilkin əlillik müəyyən olunmuş şəxslərin sayı 5,2 min nəfər, III dərəcə ilkin əlillik müəyyən olunmuş şəxslərin sayı isə 2,7 min nəfər olmuşdur. Bu isə 2019-cu illə müqayisədə, müvafiq olaraq, I dərəcə üzrə 46,0%, II dərəcə üzrə 51,0%, III dərəcə üzrə isə 49,0% azdır. Eyni zamanda, onlardan 3,6 min nəfər ilkin sağlamlıq imkanları məhdud uşaqlar olmuşdur ki, bu da əvvəlki illə müqayisədə 60,0% azdır.

Azərbaycan Respublikasında əlilliyi olan şəxslərin hüquqlarının təminatı və qorunması dövlətin əsas prioritet fəaliyyət istiqamətlərindən biridir. Bu məqsədlə hər il dövlət tərəfindən "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq əlilliyi olan şəxslərin hüquqlarının dövlət monitorinqi aparılır. Monitorinqin məqsədi əlilliyi olan şəxslərin hüquqlarının təmin edilməsi sahəsində dövlət siyasətinin həyata keçirilməsinin cari vəziyyətinin öyrənilməsi, çatışmazlıqların və həyata keçiriləcək dövlət siyasəti istiqamətlərinin və tədbirlərin müəyyən edilməsidir.

2020-ci ildə Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin tabeliyindəki 15 Reabilitasiya Mərkəzi, o cümlədən Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzi, 1 və 2 saylı Uşaq Reabilitasiya mərkəzlərində 2,3 min nəfər (1,7 min nəfər stasionar, 565 nəfər ambulator) reabilitasiya xidməti almışdır.

Hesabat ilində əlilliyi olan şəxslər və sağlamlıq imkanları məhdud uşaqlar üçün reabilitasiya infrastrukturunun təkmilləşdirilməsi və genişləndirilməsi istiqamətində fəaliyyət gücləndirilmiş, bu məqsədlə 2020-ci il ərzində Lənkəran Reabilitasiya Mərkəzi, Xaçmaz Reabilitasiya Mərkəzi, Şəki Reabilitasiya Mərkəzi, Şirvan Reabilitasiya Mərkəzi, Sumqayıt Reabilitasiya Mərkəzi əsaslı təmir və yenidənqurma işlərindən sonra istifadəyə verilmişdir. Şağan Müalicə Pansionatında əsaslı təmir işləri başa çatmaq üzrədir və 2021-ci ilin birinci rübündə istifadəyə verilməsi planlaşdırılır. "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq hesabat ilində hər biri 25 çarpayı olmaqla Şəmkir və Qəbələ rayonlarında uşaqlar üçün reabilitasiya mərkəzlərinin tikintisi davam etdirilmişdir.

Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzi və onun struktur bölmələri tərəfindən 11,3 min nəfər əlilliyi olan şəxs (onlardan, 1,6 mindən çox şəxs Qarabağ müharibəsi əlili) və sağlamlıq imkanları məhdud uşaqlar (SİMU) təxminən 35,0 min ədəd reabilitasiya vasitəsi ilə təmin edilmişdir.

2020-ci ildə Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzi və onun struktur bölmələri tərəfindən əlilliyi olan şəxslərə 974 ədəd əlil arabası, 265 ədəd eşitmə aparatı, 1,5 min ədəd aşağı və yuxarı ətraf protezi, 409 süd vəzi protezi, 1,1 min ədəd yuxarı və aşağı ətraf protezi, 191 ədəd bel və boyun nahiyəsi üçün korset, 3,4 min ədəd protez ayaqqabı, 3,6 min ədəd ortopedik ayaqqabı, 1,3 min ədəd dördayaqlı dayaq vasitəsi, 2,9 min ədəd

qoltuqaltı və dirsəkaltı ağac, 2,5 min ədəd əsa verilmiş, 490 ədəd protez-ortopedik məmulat təmir olunmuşdur.

Postmüharibə dövründə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlarda iştirak edərək xəsarət almış hərbi qulluqçuların əlilliyinin operativ qiymətləndirilməsi məqsədilə Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyində İşçi qrupu yaradılmışdır.

## 5. Pandemiya və sosial tədbirlər paketi

COVID-19 pandemiyası dövründə "Məşğulluq və sosial rifah"a dəstək tədbirləri məqsədilə ölkə əhalisinin 48,0%-ni və ya 4,8 mln. nəfəri əhatə edən 4 istiqamət üzrə 12 tədbirin icrası ilə bağlı aşağıdakı fəaliyyətlər həyata keçirilmişdir:

***Dövlət sektoru üzrə işçilərin işsizlik riskindən qorunması və sosial müdafiəsi istiqamətində.*** Dövlət sektoru üzrə işçilərin əsassız yerə işdən çıxarılması, ixtisarına yol verilməməsi və məzuniyyətə buraxılan işçilərin əmək haqlarının saxlanması istiqamətində 908 min nəfər işçinin iş yeri və əməkhaqqı gəliri qorunmuşdur.

***Qeyri-dövlət sektoru üzrə muzdlu işçilərin işsizlik riskindən qorunması və sosial müdafiəsi istiqamətində***. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində özəl sektor üzrə 2021-ci ilin 1 yanvar tarixinə əmək müqavilələrinin sayı nəinki azalmış, hətta 2020-ci ilin əvvəli ilə müqayisədə 24,0% və ya 154 min artım olmaqla 794 min əmək müqaviləsi qeydə alınmışdır.

***İşsiz və işdən azad olunmuş şəxslərin məşğulluğu və sosial müdafiəsi istiqamətində:***

1. Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən işsiz şəxslərin aktiv məşğulluğunun təmin edilməsi və onların əmək bazarına daxil olmasına dəstək göstərilməsi məqsədilə 38 min haqqı ödənilən ictimai iş yeri yaradılmışdır. Bundan əlavə pandemiya dövründə haqqı ödənilən ictimai iş yerlərinin sayının 90 minə çatdırılması üçün müvafiq tədbirlər davam etdirilmişdir. Belə ki, xüsusi karantin rejimi dövründə haqqı ödənilən ictimai işlərin sistemli və şəffaf şəkildə təşkili məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi nəzdində "DOST İş Mərkəzi" MMC tərəfindən işsiz şəxslərlə əmək müqavilələri bağlanılmış, bununla da 38 min davamlı ictimai iş yerlərinin 98,0%-i, 52 min iş yeri üzrə isə 2 aylıq işlərin 75,0%-i təmin edilmişdir.

Dövlət şirkətlərində yaradılmış 26 min ictimai iş yerinin "DOST İş Mərkəzi" MMC-yə ötürülməsi nəzərdə tutulmuş və ilkin inventarizasiya və optimallaşdırma nəticəsində bu rəqəm 18 minə düşmüşdür.

2. Dövlət Məşğulluq Agentliyi (DMA) orqanlarında işsiz kimi qeydiyyatda olan, o cümlədən xüsusi karantin rejimi dövründə gəlirini itirmiş qeyri-formal məşğul şəxslərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə 600 min nəfərə yaşayış minimumu həcmində (190 manat) birdəfəlik ödəmənin verilməsi aprel və may aylarında təmin edilmişdir. Sərtləşdirilmiş karantin rejimi tətbiq olunan rayonlar (şəhərlər) üzrə sonradan əlavə dörd dəfə ödəmə həyata keçirilmişdir. Bu istiqamətdə ümumilikdə 450,0 mln. manat vəsait xərclənilmişdir.

Hesabat dövründə ölkədə işçilərin sosial müdafiəsinin daha da gücləndirilməsi, əmək münasibətləri iştirakçılarının digər əmək hüquqlarının və təminatlarının effektiv müdafiəsinin təmin edilməsi sahəsində dövlət orqanları arasında koordinasiya olunmuş siyasətin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 17 mart tarixli 2760 nömrəli Sərəncamı ilə yaradılmış Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyası tərəfindən müvafiq tədbirlər davam etdirilmiş, "Qeyri-formal məşğulluğa nəzarət" vahid elektron informasiya ehtiyatına inteqrasiyası tələb olunan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı" və "Qeyri-formal məşğulluğun leqallaşdırılması sahəsində nəzarət tədbirlərinin keçirilməsi və əlaqələndirilməsi Qaydası" təsdiq edilmişdir.

"Qeyri-formal məşğulluğa nəzarət" elektron informasiya ehtiyatının yaradılması ilə bağlı işlər davam etdirilmişdir.

COVID-19 pandemiyası dövründə yerli qurumlarda işsiz və işaxtaran kimi qeydiyyata alınmış şəxslər təlimlərə cəlb edilmədən, yerli qurumların köməyilə tərtib edilən biznes

planlar əsasında seçdikləri istiqamətlər üzrə özünüməşğulluğa cəlb edilmiş və müvafiq material, avadanlıq və digər əmlakla təmin olunmuşdur.

3. Həmçinin, özünüməşğulluq proqramının əhatə dairəsi genişləndirilmiş və 2020-ci il ərzində 12245 işsiz və işaxtaran aztəminatlı şəxs əmlaklarla təmin edilmişdir. Bunlardan, 10,6 min nəfər (7,2 min nəfər kənd təsərrüfatı, 3,4 min nəfər isə istehsal və xidmət istiqaməti üzrə) Dövlət Məşğulluq Agentliyi tərəfindən, 250 nəfər Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyi ilə, 300 nəfər BMT-nin Əlillər layihəsi və 95 nəfər BMT-nin İnkişaf Proqramı ilə birlikdə, habelə 1000 nəfər yerli kommersiya bankları vasitəsilə özünüməşğulluq proqramına cəlb edilmişdir.

4. İşsizlikdən sığorta ödənişlərinin əhatə dairəsinin genişləndirilməsi və proaktiv təyinat mexanizminin yaradılması tədbiri 1,3 min nəfəri əhatə etməklə, bu istiqamətdə 2,1 mln. manat vəsait xərclənmişdir.

5. İşsizlikdən sığorta ödənişi bitmiş, lakin işlə təmin olunmamış şəxslərə və peşə hazırlığı kurslarında fasilə yaranmış müdavimlərə xüsusi karantin rejimi dövründə sığorta ödənişi və təqaüdlərin davam etdirilməsi, əmək haqlarının birgə maliyyələşdirilməsi proqramının təkmilləşdirilməsi tədbirinə 950 nəfər cəlb edilmiş və 620 min manat vəsait xərclənmişdir.

Bundan başqa, Dövlət Məşğulluq Agentliyi tərəfindən əməkhaqqının birgə maliyyələşdirilməsi üzrə prioritet sahələrin və peşələrin siyahısı müəyyənləşdirilmiş, sosial iş yerlərində işə düzəlmək üçün 219 işsiz və işaxtaran şəxsə göndəriş verilmiş, 42 nəfər (3 nəfər əlil, 31 nəfər gənc, 24 nəfər qadın olmaqla) işə qəbul edilmişdir. Bunlardan 4-ü şəhid ailəsi, 11-i müharibə iştirakçısı ailəsi, 1-i isə müharibə əlili olan şəxsin ailə üzvüdür.

***Əhalinin xüsusi həssas təbəqəsindən olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində:***

1. Sosial sığorta haqlarının azalması şəraitində kəsirin bağlanması və əhaliyə sosial ödənişlərin (pensiya və müavinətlər) davamlılığının təmin edilməsi məqsədilə Dövlət Sosial Müdafiə Fondu üzrə 250,0 mln. manat vəsait əhaliyə sosial ödənişlərin davamlılığının təmin edilməsi istiqamətində yönəldilmişdir.

2. Xüsusi karantin rejimi dövründə Ünvanlı Dövlət Sosial Yardımı (ÜDSY) bitən ailələrə (şəxslərə) yardımın verilməsinin xüsusi karantin rejimi bitənədək davam etdirilməsi və bu dövrdə ÜDSY-nin təyinatının sadələşdirilməsi tədbiri 9,4 min ailənin 38,9 min üzvünü əhatə etmiş və 8,6 mln. manat vəsait sərf edilmişdir. Qeyd olunanlarla yanaşı, 2020-ci il martın 1-dən etibarən əlillik müddəti başa çatan əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların əlillik müddəti Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejimi ilə əlaqədar uzadılmışdır.

3. Yaşı 65-dən yuxarı tənha şəxslərə evlərində sosial xidmətlərin göstərilməsi və xüsusi qayğıya ehtiyacı olan şəxslərə sosial xidmət müəssisələrində xidmət göstərilməsi tədbirlərinin icrası istiqamətində sosial xidmət işçiləri səfərbər edilməklə pandemiyaya yoluxma riski yüksək olan yaşı 65-i ötmüş vətəndaşlara evlərində gündəlik (ev təsərrüfatı ilə bağlı işlərdə, əsas tələbat mallarının, dərman vasitələrinin alınmasında, kommunal ödənişlərin edilməsində və s.) sosial məişət xidmətləri göstərilmişdir. Bakı şəhəri və respublikanın bölgələri üzrə 15 min tənha yaşlıya və əlilliyi olan şəxsə evlərində sosial xidmətin göstərilməsi işləri təşkil edilmişdir.

4. Əhaliyə güzəştli işıq limitinin aprel-may aylarında 100 kVts həcmində artırılması tədbiri ilə bağlı dövlət büdcəsindən 10,0 mln. manat vəsait ayrılmışdır.

Ümumilikdə, məşğulluq və sosial rifaha dəstək bölməsi üzrə 610,0 mln. manata yaxın vəsait xərclənmişdir.

## 6. Şəhid ailəsi üzvlərinə və müharibə iştirakçılarına sosial dəstək tədbirləri

Postmüharibə dövründə zərər çəkmiş şəxslərə dəymiş zərərin bərpası və onların cəmiyyətə inteqrasiyası istiqamətində Vətən müharibəsi şəhidlərinin və itkin düşmüş hərbçilərin ailələri, müharibədə yaralanmış hərbçilər, erməni terrorundan zərər çəkmiş şəxslər və müharibə iştirakçıları üzrə ümumilikdə ***7,0 min şəxs sosial dəstək tədbirləri ilə*** əhatə olunmuşdur. Belə ki:

– ***1,1 min şəhidin 2,6 min ailə üzvünə*** pensiya, müavinət, təqaüd təyin edilmiş və proses hazırda davam etməkdədir.

– özünüməşğulluq proqramına ***1,6 min nəfər*** cəlb edilmişdir (o cümlədən şəhid ailələrinin 860 üzvü).

– əmək haqlarının bir hissəsinin birgə maliyyələşdirilməsi proqramı çərçivəsində hədəf qruplarına aid ***30 nəfərə*** (o cümlədən şəhid ailələrinin 14 üzvü) göndəriş verilmişdir.

– haqqı ödənilən ictimai işlərə ***220 nəfər*** (o cümlədən şəhid ailələrinin 70 üzvü) cəlb edilmişdir.

– "Onlayn psixoloji dəstək xidməti" işə salınmış, ***2,2 min ailə*** (habelə itkin düşənlərin ailələri) ilə görüşlər təşkil edilmiş, ehtiyacı olanlara psixoloji dəstəyə başlanılmış, ödənişsiz dərman preparatları verilmişdir.

– Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzi tərəfindən müharibədə yaralanmış şəxslərə ***310 reabilitasiya vasitəsi*** verilmişdir.

– ailə üzvlərindən əlilliyi olan və sağlamlıq imkanları məhdud 300-dən çox şəxsə birdəfəlik maddi yardım ayrılmışdır.

Yaralanmış hərbçilərin əlilliyinin qiymətləndirilməsi məqsədilə komissiya yaradılmışdır. Komissiya tərəfindən Bakı və regionlarda səyyar qaydada əyani müayinələr keçirilmiş, yaralanmış hərbçilərin əlilliyinin qiymətləndirilməsi elektron sistemdə xüsusi nəzarətdə saxlanılmışdır.

Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2020-ci il 31 dekabr tarixində ***Prezident təqaüdlərinin aylıq məbləğinin artırılması ilə bağlı müvafiq fərmanlar imzalanmışdır***. Belə ki:

– şəhid ailəsi üçün - 300 manatdan ***500 manata***; (o cümlədən 20 Yanvar şəhidlərinin və Əfqanıstanda sovet qoşunları tərkibində beynəlmiləl borcu yerinə yetirərkən həlak olanların ailələri üçün);

– müharibə, 1990-cı ilin 20 Yanvar hadisələri, hərbi xidmət vəzifələrini yerinə yetirməklə, Çernobıl AES-də hərbi xidmətlə əlaqədar ***əlilliyi olan şəxslər*** üçün:

- ***I dərəcə üçün*** - 250 manatdan ***400 manata;***
- ***II dərəcə üçün*** - 230 manatdan ***350 manata;***
- ***III dərəcə üçün*** - 210 manatdan ***300 manata;***

– ***Milli Qəhrəmanlar*** üçün - 1500 manatdan ***1800 manata;***

– ***Böyük Vətən müharibəsi iştirakçıları*** üçün 150 manatdan ***300 manata*** çatdırılmışdır;

– "***Vətən Müharibəsi Qəhrəmanı***" adı verilmiş şəxslər üçün Prezidentin aylıq təqaüdü təsis olunmuşdur - ***2000 manat***.

Vətən müharibəsində iştirak edərək xəsarət (yaralanma, travma, kontuziya) almış hərbi qulluqçuların əlilliyinin operativ qiymətləndirilməsi məqsədi ilə aidiyyəti dövlət orqanlarının (qurumlarının) nümayəndələrindən ibarət Komissiya yaradılmışdır.

## 7. İnstitutsional inkişaf

***Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST) konsepsiyası.*** 2020-ci ilin 19 may tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Bakı şəhərinin Nizami, Sabunçu və Suraxanı rayonları sakinlərinə xidmət edəcək "A" kateqoriyalı 3 saylı Bakı DOST Mərkəzinin inzibati binasının açılış mərasimi olmuşdur.

"DOST" mərkəzlərində 132 növ xidmətin göstərilməsi təmin edilmişdir.

2020-ci ildə Agentliyin missiyasına uyğun olaraq "DOST Qarabağ" proqramı hazırlanmışdır. Proqramın strateji məqsədi işğaldan azad edilmiş Dağlıq Qarabağ və ətraf 7 rayonda yaşayan (o cümlədən oraya qayıdacaq) ölkə vətəndaşları üçün müasir texnologiya və idarəetmə imkanlarından istifadə etməklə qabaqcıl standartlara uyğun sosial müdafiə, sosial təminat və məşğulluq xidmətlərinə əlçatanlığın təmin edilməsidir.

"DOST" mərkəzlərində ümumilikdə 250 min şəxsə müvafiq xidmətlərin göstərilməsi təmin edilmişdir.

“DOST” mərkəzlərinə edilmiş müraciətlərin 131,3 mini (73,9%) sosial müdafiə, 27,9 mini (15,7%) məşğulluq, 11,5 mini (6,5%) əlillik, 550-si (0,3%) əmək münasibətləri və 6,4 mini (3,6%) Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müxtəlif fəaliyyət istiqamətlərinə dair arayışların verilməsi xidmətləri üzrə olmuşdur.

“DOST” mərkəzləri tərəfindən göstərilən xidmətlərin pasportlaşdırılması həyata keçirilmişdir. Ümumilikdə, 11 istiqamət və 114 xidmət üzrə pasport hazırlanmışdır. Bununla yanaşı, vətəndaşlara hüquqlarının izahını, qanunların daha əlçatan olmasını təmin etmək məqsədilə istiqamətlərə uyğun göstərilən xidmətlər üzrə 33 məlumat kitabçası hazırlanmışdır.

“DOST” mərkəzlərinə müraciət edənlər arasında aparılmış sorğunun nəticələrinə əsasən vətəndaşların məmnunluq səviyyəsi 97,0% təşkil etmişdir.

“DOST” mərkəzlərində könüllü olaraq çalışmaq istəyən vətəndaşlar üçün imkanlar yaradılmış, bu məqsədlə gənclər üçün “Gənc DOST”, yaşlı şəxslər üçün “Gümüşü DOST” və “Virtual DOST” proqramları istifadəyə verilmişdir. Bu proqramlara hesabat dövrü ərzində 13,9 min nəfər könüllü müraciət etmiş, onlardan 407 nəfəri “DOST” mərkəzlərində könüllü fəaliyyətinə cəlb edilmiş və xüsusi fərqlənən 26 nəfər işlə təmin olunmuşlar.